

Aİ-Azərbaycan

# 25 İL DAVAM EDƏN GÜCLÜ TƏRƏFDAŞLIQ

| | |
|---|---|
| **28 ÜZV DÖVLƏT** | |
| **AVROPA GÜNÜ** | **9 MAY (ŞUMAN BƏYANNAMƏSİ)** |
| **ƏHALİ** | **> 500 MİLYON** |
| **ÜDM/ADAM BAŞINA** | **EUR 25 100** |
| **RƏSMİ DİL** | **24** |

## ÜZV DÖVLƏTLƏR:

Almaniya, Avstriya, Belçika, Birləşmiş Krallıq, Bolqarıstan, Çex Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, Hollandiya, Xorvatiya, İrlandiya, İspaniya, İsveç, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Yunanıstan.

### NAMİZƏD ÖLKƏLƏR:

İslandiya, Keçmiş Yuqoslaviya Makedoniya Respublikası, Monteneqro, Serbiya, Türkiyə.



# AVROPA İTTİFAQI (Aİ) VƏ AZƏRBAYCAN ARASINDAKI MÜNASİBƏTLƏRİN BAŞLANĞICI 1990-CI İLLƏRİN ƏVVƏLLƏRİNƏ TƏSADÜF EDİR.

## 1996

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) – ikitərəfli münasibətlər üçün hüquqi baza

## 2003

Avropa Qonşuluq Siyasəti (AQS) – ikitərəfli münasibətlərin və Aİ-nin göstərdiyi yardımın artırılması mexanizmi

## 2006

AQS Fəaliyyət Planı: kompleks islahatlar gündəliyi



## 2008

Bakıda Aİ-nın Azərbaycandakı Nümayəndəliyinin açılması

## 2009

Şərq Tərəfdaşlığı – Siyasi əməkdaşlığın və iqtisadi inteqrasiyanın daha da gücləndirilməsinə yönələn alət

## 2014

Viza Rejiminin Sadələşdirilməsi və Readmissiya Sazişləri

## Aİ AZƏRBAYCANIN ƏSAS İQTİSADİ TƏRƏFDAŞI OLMAQLA YANAŞI, ÖLKƏ TİCARƏTİNDƏ 44% PAY SAHİBİDİR.




Aİ Azərbaycan üçün ən böyük ixrac və idxal bazarı olaraq qalır. 2014-cü ildə Azərbaycana məhsul ixrac edən ən böyük ölkələr Almaniya (775 milyon avro; Aİ ixracının 22,3%-i), Birləşmiş Krallıq (701 milyon avro; 20,1%), İtaliya (595 milyon; 17,1%), Hollandiya (292 milyon; 8,4%), Fransa (208 milyon; 6 % ) və Avstriya (120 milyon; 3,4%) olmuşlar.

Aİ və Azərbaycan arasındakı iqtisadi münasibətləri daha da gücləndirmək məqsədilə hazırda Azərbaycanda Aİ-nın Biznes Forumunun qurulması imkanı araşdırılır. Bu da hakimiyyət orqanları ilə biznes mühitində olan sistemli maneələrin müzakirə edilməsi, biznes mühitinin araşdırılması, Aİ-nın təcrübəsinə əsaslanaraq biznes sahəsində mövcud çətinliklərin öhdəsindən gəlmək üçün konkret tövsiyələrin verilməsi baxımından əsas mexanizm rolunu oynaya bilər.





Azərbaycan müstəqillik qazandığı vaxtdan - 1990-cı illərin əvvəllərindən- Aİ qrant şəklində ölkəyə 500 milyon AZN-dən artıq maliyyə yardım etmişdir. Azərbaycanın çətin günlərində Aİ ölkəyə humanitar yardım göstərmiş, məktəb və xəstəxanaları bərpa etmişdir.

## 2007-2015-Cİ İLLƏR ƏRZİNDƏ Aİ 179 MİLYON AVRO BİRDƏFƏLİK QRANT AYIRARAQ AZƏRBAYCANDA HƏM HÖKUMƏTƏ, HƏM DƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNƏ QRANT VERƏN ƏN BÖYÜK XARİCİ DONOR OLMUŞDUR.

Yardıma - büdcə yardımı, texniki yardım, Tvinninq layihələri və qrantlar daxil idi. 2014-2017-ci illərdə isə Aİ-nın yardım edəcəyi əsas sahələr regionların və kənd yerlərinin inkişafı, təhsil və ədliyyə sektorlarıdır.

## REGİONLARIN VƏ KƏND YERLƏRİNİN İNKİŞAFI AZƏRBAYCAN ÜÇÜN XÜSUSİ ƏHƏMİYYƏT KƏSB EDİR, ÇÜNKİ ƏHALİNİN DEMƏK OLAR Kİ, YARISI KƏND YERLƏRİNDƏ YAŞAYIR VƏ KƏND TƏSƏRRÜFATINA GƏLİR MƏNBƏYİ KİMİ BAXIR.

Kənd yerlərinin inkişafı və kənd təsərrüfatı sektorunun gücləndirilməsi bir çox ölkələrdə vacib məsələlərdəndir. Onlara qida təhlükəsizliyi, ərzaq təhlükəsizliyi, kənd yerlərində yaşayış səviyyəsi, məşğulluq və gəlir kimi mühüm məsələlər, eləcə də əhalinin zəif qrupları üçün sosial və fiziki infrastruktur, ekoloji dayanaqlığın təkmilləşdirilməsi məsələləri daxildir. Eyni zamanda bu sahədə məhsuldarlıq aşağıdır, ÜDM-nin yalnız 5.4% kənd təsərrüfatının payına düşür. Prioritet sahələrdən biri kimi Aİ bu mühüm sektora siyasi məsələlərdə məsləhət xidmətlərinin və texniki yardımın göstərilməsindən tutmuş seçilmiş kənd yerlərində icma və pilot təşəbbüslərin dəstəklənməsinədək geniş çeşidli yardım göstərir.





## SON İKİ ONİLLİKDƏ Aİ AZƏRBAYCANDA KƏND YERLƏRİNİN İNKİŞAFI SAHƏSİNİ ƏHƏMİYYƏTLİ ŞƏKİLDƏ DƏSTƏKLƏMİŞDİR.

Bu müddət ərzində Aİ Azərbaycan Hökuməti və kənd icmaları ilə aşağıdakı istiqamətlər üzrə əhatəli çalışmışdır:

- Kənd təsərrüfatı sektorunda rəqabətin artması;
- Ölkə və kənd yerlərinin iqtisadiyyatının çoxşaxəli inkişafının təşviqi;
- Torpaqlardan davamlı istifadə və ətraf mühitin dəstəklənməsi;
- Kənd yerlərində həyat səviyyəsinin yüksəlməsi.

## BU GÜN AZƏRBAYCANIN QARŞISINDA DURAN ƏSAS ÇAĞIRIŞLARDAN BİRİ ÖLKƏ İQTİSADİYYATINI DƏYİŞMƏKLƏ VƏ ONUN ÇOXŞAXƏLİ İNKİŞAFINA NAİL OLMAQLA İNSAN KAPİTALINI İNKİŞAF ETDİRMƏKDİR.

Bu keçid dövründə Azərbaycanı dəstəkləmək məqsədilə Aİ iqtisadiyyatın çoxşaxəli inkişafına təhsil sisteminin təkmilləşdirilməsi yolu ilə töhfə vermək üçün 19 milyon avro vəsait ayırmışdır. Aİ-nın "Təhsil Sektoruna Yardım Proqramı" iqtisadi və sosial inkişafa müvafiq olan tədris imkanlarının artırılması və ixtisasların təkmilləşdirilməsi sahəsində ölkənin öz qarşısına qoyduğu məqsədlərini əhəmiyyətli dərəcədə dəstəkləyəcəkdir.



Turizm sektorunda müasir peşə təhsili və təlimi (PTT) sisteminin reallaşdırılması üçün Ismayıllı pilot region kimi seçilmişdir. Təhsil Nazirliyində işçi heyətin potensial quruculuğuna, bütün iştirakçı tərəflərlə, o cümlədən yerli sənaye sektoru ilə məsləhətləşmələrin aparılması ilə müasir PTT strategiyasının, kurrikulum və təlimin hazırlanmasına yardım etmək üçün Avropa İttifaqı 2.5 milyon avro məbləğində texniki yardım göstərmişdir. Turizm sahəsində Avropa səviyyəsində peşə təhsili vermək üçün Aİ layihə çərçivəsində məktəbi müvafiq mətbəx və mehmanxana avadanlığı ilə təchiz etmişdir. Regionda əmək bazarının hərtərəfli tədqiqatı aparılmış, aşbaz, ofisiant, barmen, turizm agentləri, yerli bələdçi və mehmanxana qeydçiləri peşələri üzrə müasir kurrikulum işlənmiş, marağı olan gənc müəllimlərə təlim keçirilmişdir. PTT məktəbi insan resurslarında boşluqların təhlilini aparmaq üçün daim yerli sahibkarlarla məsləhətləşir, tələbələrin əmək bazarında özlərinə asanlıqla yer tapmaları ilə nəticələnən müvafiq qəbul planı hazırlayır.





## İSMAYILLI PEŞƏ TƏDRİS MƏRKƏZİ AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİ VƏ TƏLİMİNİN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ AVROPA İTTIFAQI İLƏ AZƏRBAYCANIN SON 7 İLDƏ BAŞLADIĞI ƏMƏKDAŞLIĞIN ƏYANİ TƏCƏSSÜMÜDÜR.

## AZƏRBAYCANDA ƏDLİYYƏ SEKTORU İSLAHATLARI Aİ-NIN HƏR ZAMAN ÖNƏM VERDİYİ PRİORİTET MƏSƏLƏ OLMUŞ VƏ OLMAQDADIR.

Aİ hüquqi yardımın göstərilməsi, münaqişələrin həlli üçün alternativ mexanizmlərin inkişaf etdirilməsi ilə ədliyyəyə çıxışı dəstəkləyir.



Azərbaycan 2008-ci ildən 34 Tvinninq layihəsindən yararlanmışdır; bu, regionda ən yüksək göstəricilərdən biridir.

## TVİNNİNQ PROQRAMI BENEFİSİAR ÖLKƏLƏRDƏ Aİ-NIN ƏN YAXŞI TƏCRÜBƏ VƏ STANDARTLARININ UYĞUNLAŞDIRILMASI VƏ QƏBUL EDİLMƏSİNƏ YARDIM EDİR.

Tvinninq:

- Biliklərin birbaşa Aİ-yə Üzv Dövlətlərin dövlət qurumlarından Azərbaycanın dövlət qurumlarına çatdırılması yolu ilə potensial quruculuğu;
- Aİ-yə Üzv Dövlətlərdən dövlət qulluqçularının Hökumətin müvafiq idarəetmə orqanlarına 27 aya qədər ezam edilməsi deməkdir;



2013-cü ilin əvvəllərində Avstriya və Litvadan olan 15 ekspert qrupu turizmin inkişafı sahəsindəki biliklərini bölüşmək məqsədilə Azərbaycana gəlmişdir. Komandaya layihə rəhbəri Florian Sengstçmid və Rezident Tvinninq Müşaviri Dayva Kirkilaite-Çetcuti rəhbərlik etmişdir. Bir neçə ay ərzində ekspertlər Mədəniyyət və Turizm Nazirliyinin Turizm Şöbəsindən olan Azərbaycanlı həmkarları ilə birgə işləmiş; ən yaxşı təcrübəni onlarla bölüşmüş, turizm sektorunda dövlət idarəçiliyinin təkmilləşdirilməsinə yardım etmişlər.

Turizm Azərbaycanda yeni sahə olsa da sürətlə inkişaf edir və ölkənin qeyri-neft iqtisadiyyatının inkişafında mühüm sektor hesab olunur.

"Tvinninq layihəsi 16 ay əvvəl başlamışdır və biz inanırıq ki, bu gün nailiyyətlərimiz göz qabağındadır: strateji sənədlər təsdiq edilmiş, təşkilati dəyişikliklər, o cümlədən, Almaniya və Rusiyada turizm nümayəndəliklərinin açılması prosesi başlamışdır" – deyə Dayva bildirmişdir. Layihənin göstərdiyi dəstək hesabına Mədəniyyət və Turizm Nazirliyi Turizm Marketinq Strategiyasını (2014-2016) qəbul etmişdir: bu, turizm sektorunun inkişafı üçün əsas və münasib məqsədlərin müəyyən edildiyi orta müddətli siyasi sənəddir.

Aİ-nın hüquqşünasları turizm sahəsində cari qanunvericiliyi nəzərdən keçirərək, onun Aİ standart və normalarına münasib şəkildə uyğunlaşdırılması ilə bağlı tövsiyələr vermişlər. Mehmanxana və yerləşmə üçün minimum standartların müəyyən edilməsində də ekspertlər yardım göstərmişlər. "Bu, turistik assosiasiyaların işini dəstəkləyəcəkdir," deyə Dayva izah edir. "Məsələn, biz turistik assosiasiyalar üçün Nizamnamə, müştərilərlə tur agentliklər, eləcə də tur operatorlarla mehmanxanalar arasındakı müqavilələri hazırlamışıq".

Dayva və Florian turizm guşələrinin idarə edilməsi mövzusunda dövlət və regional (İsmayıllı və Lənkəranda) orqanlar üçün təlimlər keçmişlər.

Litvalı ekspertlər Azərbaycanın Naftalan istirahət zonasının modelini hazırlamışlar. Avstriya ekspertləri "Şirvan" milli parkı və onun yaxınlığında yerləşən palçıq vulkanları kimi ekoloji baxımdan həssas regionlarda turizm və istirahət zonalarının modelini təklif etmişlər.

## FAKT QUTUSU

- Layihə: Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyində Turizm Şöbəsinin İmkanlarının Gücləndirilməsi
- Əsas elementlər: turizm sahəsində qanunvericiliyə, bazara nəzarət, strateji planlaşdırma, potensial quruculuğu tədbirlərinə dair məsləhət xidmətləri göstərmək, turizm idarəçiliyi sahəsində ən yaxşı təcrübəni bölüşmək
- Aİ tərəfdaşları: Avstriya (Avstriyanın Federal Satınalmalar Agentliyi və Avstriyanın Ekologiya Agentliyi) və Litva (İqtisadiyyat Nazirliyi Turizm Şöbəsi).
- Büdcə: €900,000 (Aİ maliyyələşməsi)
- Müddəti: Fevral 2013 – İyun 2014

www.facebook.com/tourism.twinning

# QRANT LAYİHƏLƏRİ

Aİ vətəndaş cəmiyyətinə qrant verən ən böyük xarici donordur. 2007-2013-cü illər ərzində Aİ-nın ayırdığı 15.8 milyon avrodan artıq vəsaitlə 59 layihə maliyyələşdirilmişdir. Əsas diqqət əhalinin zəif qruplarının, insan hüquq müdafiəçilərinin, media azadlığı, azad və ədalətli seçkilərin dəstəklənməsi, gender bərabərliyi, qadınlara səlahiyyətlərin verilməsi, uşaqlar üçün ədliyyəyə çıxış, region və kənd yerlərinin inkişafı kimi məsələlərə verilmişdir.

## KƏRPİC KƏSƏN XANIMIN DASTANI

Düşünürük ki, bu xanım dahi Nizaminin qəhrəmanı “Kərpic kəsən qoca” kimi halal əməyi ilə yaşayan namuslu insandır.

Riyanə Qafarova Qusar rayonunun Piral kəndində doqquz uşaqlı ailədə dünyaya gəlib. Çox çətin şəraitdə böyüyən Riyanənin ən böyük istəyi ali təhsil alıb, öz biznesini qurmaq idi. Lakin maddi imkansızlığa görə o, həyata tutunmaq və ailəsinə kömək etmək məcburiyyətində qalaraq təhsilini yarıda buraxmalı olur.

Bir gün yaxın qonşusu ona kənddə usta yanında şagird hazırlığı kursları barədə xəbər verir. Riyanə buna çox sevinir və həmin elanla Aİ-nın maliyyə dəstəyi ilə təşkil edilən qadın bərbəri kursuna yazılır. İki körpə uşaq anası Riyanə Qafarova böyük ümidlərlə 4 ay müddətində həftədə 3 dəfə avtobusla 20 km məsafəni qət edərək Qusar rayon mərkəzində keçirilən dərs və təlimlərdə iştirak edir.

Riyanə deyir: “Mən hər zaman televiziya kanallarında moda verilişlərinə baxanda xanımlara yeni saç düzümü verib, onları yeni üslubla bəzəməyi xəyal edirdim, bu gün artıq sənət sahibiyəm. İndi isə ən böyük hədəfim qadın salonu açmaqdır”.

Kursa başlayanda Riyanə və digər iştirakçılar bilirdi ki, kursu müvəffəqiyyətlə bitirən gənclər kiçik biznes qurmaq üçün dəstək alacaq. Riyanə kursu müvəffəqiyyətlə bitirənlərdən oldu və onun “Biznes Planı” layihə çərçivəsində dəstəkləndi.

Hədəfinə doğru irəliləyən Riyanə maddi imkanı olmadığından salonu çiy kərpicdən tikmək qərarına gəlir. Salona lazım olan avadanlıqlar isə layihə hesabına alınırdı.

## O, GÜNƏ 250 KƏRPİC HAZIRLAYIRDI.

Kərpic kəsmək üçün torpaq ələnir, yoğrulur, içinə saman qatılır və taxta qəliblərə tökülərək, günəşdə qurudulur. Rusiyadan qayıdan həyat yoldaşı ilə birlikdə kəsdiyi kərpiclərdən xudmani tikili qurur və sonra Riyanə öz əlləri ilə ona suvaq çəkir.

Bu gün 28 yaşlı Riyanə maddi cəhətdən heç kəsdən asılı olmayan, öz halal zəhməti ilə yaşayan Azərbaycan xanımıdır.

“Bu layihədən faydalana bildinizmi?” sualına Riyanənin cavabı belə oldu: “Əlbəttə! Kursa getməklə bu sənətin incəliklərini öyrəndim. Təşkil olunan təlimlər məni öz biznesimi qurmağa həvəsləndirdi. İstəyim o qədər güclü oldu ki, salonu öz əllərimlə tikdim, bu layihə hesabına isə lazımi avadanlıqlar alındı. Nəhayət, mən də öz istəyimə çatdım”.

Bu uğur tarixçəsi hafizəmizdən hələ uzun müddət silinməyəcək. Xanım üçün belə bir həyat mücadiləsi alqışa layiqdir.



Riyanə Qafarova öz əlləri ilə tikdiyi salonda

## FAKT QUTUSU

### Aİ TƏRƏFİNDƏN MALİYYƏLƏŞƏN LAYİHƏ HAQQINDA

“Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyi tərəfindən həyata keçirilən “Kəndlərin Davamlı İnkişaf Təşəbbüsü” layihəsi çərçivəsində müxtəlif peşələrə yiyələnmək və öz kiçik bizneslərini qurmaq istəyən gənclər üçün Usta Yanında Şagird Hazırlığı kursları;

Sahibkarlıq fəaliyyətinə təsir edən amillər, faydalı məsləhətlər, biznes planın hazırlanması, strukturu və məzmunu, bazar araşdırması, GZİT (SWOT) təhlili, reklam üzrə təlimlər;

Təlimlərdə Quba, Xaçmaz, Şabran və Qusar rayonlarından seçilmiş (müraciətlər əsasında) 61 nəfər iştirak etmiş və 34 nəfər sertifikat almışdır.

Usta Yanında Şagird Hazırlığına 113 ərizə qəbul edilib. Onlardan 48 gənc artıq seçilib.

Bu günə qədər kursu bitirənlərdən 4 nəfərin Biznes Planı dəstəklənib.



**AVROPA FİLM FESTİVALLARI 2010-CU İLDƏN AVROPA İTTİFAQININ AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİ VƏ Aİ-YƏ ÜZV DÖVLƏTLƏRİN SƏFİRLİKLƏRİ TƏRƏFİNDƏN TƏŞKİL EDİLİR.**



Festival adətən oktyabr ayında keçirilərək Avropa ölkələrindən olan müasir filmləri tamaşaçılara təqdim edir. Filmlərə baxış pulsuzdur. Komediya, dram, animasiya, sənədli film kimi müxtəlif janrlarda olan filmlər bütün kino həvəskarlarını Festivala cəlb edir. Festival Avropa İttifaqı ölkələri ilə Azərbaycan arasındakı mədəniyyət əlaqələrinin qurulmasına və daha da möhkəmlənməsinə xidmət edərək, qarşılıqlı anlaşmanın güclənməsinə töhfə verir. 2015-ci ildə Festivalda iştirak edən ölkələrin sayı 18-ə çataraq rekord təşkil etdi və Azərbaycan da bu ölkələrə qoşuldu.









# AVROPA ŞƏHƏRCİYİ MƏDƏNİYYƏT FESTİVALI AVROPANIN ZƏNGİN MƏDƏNİYYƏTİNİ MƏTBƏX, MUSİQİ, RƏQS, İNCƏSƏNƏT VASİTƏSİLƏ, Aİ VƏ ONA ÜZV DÖVLƏTLƏR BARƏDƏ ÜMUMİ MƏLUMATIN VERİLMƏSİ İLƏ AÇIQ HAVADA KEÇİRİLƏN BİR GÜNLÜK TƏDBİRDİR.

Çoxsaylı tədbirlər, ifalar və uşaqlar üçün oyunlarla bol olan Avropa Şəhərciyi Avropa İttifaqı, eləcə də onun Azərbaycandakı fəaliyyəti ilə yaxından tanış olmağa imkan verən gözəl və əyləncəli fürsətdir. 2015-ci ildə bu tədbirdə təxminən 20000 nəfər iştirak etmişdir. Böyük səhnədə sehrbazlıq, pitsa fırlatma şouları, tanınmış yerli idmançılar tərəfindən aparılan viktorinalar, Aİ və musiqi ilə bağlı yarışmalar, milli rəqslər,





Avropalı ifaçıların axşam konsertləri, müxtəlif növ ifa və müsabiqələr keçirilmiş, eyni zamanda Aİ-yə Üzv Dövlətlərin stendlərində ölkələrə xas əyləncə növləri təqdim edilmişdir.

AI stendində Aİ-nın Azərbaycandakı fəaliyyəti barədə məlumat, eləcə də uğur hekayələri və Aİ layihələri təqdim olunmuşdur.





**“Avropa Şəhərciyi Avropaya açılan pəncərədir. O, Avropa İttifaqını formalaşdıran zəngin mədəniyyət və fərqliliyi görməyə, öyrənməyə və bundan zövq almağa imkan verən gözəl fürsətdir.”**

Aİ-nın Azərbaycandakı Səfiri Malena Mard






## Yardım göstərilən sektorlar

- Ədliyyə
- Təhsil
- Region və Kənd Yerlərinin İnkişafı
- İdarəetmə / Potensial Quruculuğu
- Ətraf Mühit

## Ölkə miqyaslı layihələr



**Diqqət:** Bu sənəd ancaq məlumat məqsədilə hazırlanmışdır. Aİ tərəfindən ərazi və ya sərhədlərin rəsmən tanınması deməl deyildir!

**Mənbə:** Aİ tərəfindən maliyyələşdirilən layihələr, aprel 2015




**Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi**

Landmark III, 11-ci mərtəbə, Nizami küçəsi, 90A,
AZ1010 Bakı, Azərbaycan Respublikası
Tel: (+994 12) 497 20 63 | Faks: (+994 12) 497 20 69

http://eeac.europa.eu/delegations/azerbaijan
EU Delegation to Azerbaijan
EU Delegation to Azerbaijan